

*Əlisəfa Azayev*

# Göl balığı

**Hekayə**

O gün hava buludlu olsa da, xoş idi. Əsil payız cənnəti yaşamalı anlar idi. Nəfəs aldıqca sanki hava yox, yağlı nəsə udur, gizli bir nəşə duyurdu. Bafadar yorğun halda gur şəlalənin yanındakı oturacaqların birində yenicə əyləşmişdi ki, torbasındakı balıqların birinin çapaladığını, tullanıb-düşdüyünü hiss etdi. Təmizlik işinə baxan cavan pəltək bir fəhlə də əlindəki uzun saplı süzgəclə hovuzdakı yarpaqları, tör-töküntünü təmizləməkdə idi. Məktəbyaşlı uşaqlardan biri soruşdu.

- Əmi, burada cimə bilərik?
- Yoo...x... - deyə həmin fəhlə onlara açıqlandı.
- Axı nə üçün?..
- İndi cimmək vaxtıdı? Hava so... yuq...du...
- Bir istəyirik də...

Uşaqlar onun sözlərinə əhəmiyyət verməyib, soyunmaq, cimmək istəyəndə, kişi onlara açıqlandı:

- De...dim ki... olmaz... da... A... və...lə...duz...na...lar...

Bafadar sanki bu an bayaqdan torbada çapalayan balığa yazığı gəldi. Onu ordan götürüb hovuz tərəf gəldi. Uşaqlar onun əlindəki balığ görüb səsləndilər:

- Balıq!..
- Diridir!...
- Nə üzür!..
- Aman Allah, qaçdı!..

Həqiqətən də, balıq özünü suda hiss edən kimi bir andaca Bafadarın əlindən çıxıb qaçdı. Sürətlə suyun içərisində üzdü, o tərəf-bu tərəfə şığıdı, suyu onların üzünə çırpıldatdı. Uşaqlar hələ də hovuzun böyür-başı ilə qaçmaqda, bəzisi isə onu tutmaq üçün lap suya girib, səslənməkdə idi.

- Bu dəqiqə!..
- Qaçmaqla deyil ki!..
- İndi gör onu necə tuturuq!..

Ancaq bu cəhdlərin heç bir faydası olmadı. Bafadar peşman halda o tərəf-bu tərəfə cumsa, əlini dəfələrlə suya salsa, şalvarın ayaqlarını çırmalayıb suya girsə də, xeyri olmadı. Bayaqdan təmizlik işinə baxan fəhlə də onun üstə düşmüşdü:

- Sə...n nə ... et...din?!.
- Kəs!..
- İn...di be...lə... ol...du!
- Xox!.. Qorxdum!..
- Ya...xxx...şı! Baa...xa..rıq!

Bir azdan kişi harasa getdi. Sonra da paqonlu bir zabit gəldi. Narazı halda Bafadura acıqlandı:

- Bu nə oyundu burada açırsan?
- Nə etmişəm ki?
- Bilmirsən ki, göl balığını bura buraxmaq olmaz?
- Balıqdı da... Üzür, havasız boğulurdu... Yazığım gəldi ona... Diriltmək istədim...

Bafadar beləcə nə qədər deyib-danışsa, özünü müdafiə etsə də, xeyri olmadı. Polis kapitanı tərsin biri idi. Onu inadkarlıq göstərərək, bölməyə aparanda, cibinə pul basmaq istəsə də, xeyri olmadı. Bu balıqları kənd sakinlərindən biri iki manata alır, şəhərdə iki yarıma, üç manata satırdı. Gündəlik qazancı bu idi. Beləcə, ailəsini birtəhər dolandırırdı. İşsizlik onu da çox şeydən uzaq salmışdı.

Bafadar bəlkə də balıq tutmaqda səriştəli olsaydı, kəndlərinin yaxınlığındakı göldə özü balıq tutardı. İndi satdığı balıq da ona belə baha başa gəlməzdi. Çox vaxtı heç nağd pulla almağa imkanı olmaz, elə nisyə alıb gətirər, sonra aparıb pullarını verərdi. Bu gün də beləcə səfər etmişdi.

- Kapitan qağa...
- Yeri-yeri...
- Bəlkə pul az oldu... Bir-iki manat da əlavə edim?
- Ə, kiri... Səndən pul istəyən var? Göl balığını təmiz sulu hovuza buraxıb, hər şeyi korlamısan...
- Dedim axı... O birdın canlandı, capaladı... Yazığım gəldi ona, ayıltmaq, su vermək istədim.
- Hümanist adama bax. Hələ dili də var danışır. Bəlkə o balıq xəstədir, insanlar da gündə orada çimir, su içirlər...
- Daha hovuzdan yox ki...
- İçən içir, özünə baxma...

Polis bölməsində isə lap insafsızlıq etdilər. Onu nə qədər içəridə saxladılar, yazıb-pozdular. Əlacsiz halda gileylənirdi:

- Ə, mən cəhənnəmə, o balıqlar ağırlaşdılar axı...
- Gör bu da nəyin dərdini çəkir ey...
- Bəs nəyin dərdini çəkməliyəm ki?.. Uşaqlar evdə mənim yolumu gözləyirlər.
- Bu gün bir şey sata bilmisən?
- Allah bərəkət versin.
- Deyirəm də... Ona görə də həddini aşmısan. Həkim qalan balıqlara baxdı. Qida üçün zərərli olduğunu deyir...
- Aman Allah, bunlar hər eşyin ağın çıxardıblar ey... - deyə Bafadar ah-aman etsə də, ona əhəmiyyət verən olmadı. Sonra da məlum oldu ki, ona cinayət işi qaldırmaqla hədələyir, pul təmənnasındadırlar. Soruşdu:
- Nə qədər xərcim çıxacaq?
- Bir...

Əvvəl yüz başa düşsə də, sonradan otuza qədər endilər. Bu pulu verməyə də əli gəlmədi. Elə bil ki, əcəli çatmışdı da. Arada bir polislərlə mübahisələşdi, əlbəyaxa oldu. Sonra da həmin təmizlik işinə baxan işçini gətirdilər, onunla üzləşdilər. Kişi də onun üzünə durub deyirdi ki, hovuzdan uzaqlaşdırmaq istəyəndə onu yumuruqladı, dürtmələdi, bir dişi də sınıb.

Dözə bilməyib dilləndi:

- Yalançının lap atasına lənət!..
- Elə ...lə...nə...t- deyə o kəkələdi.
- Ba...x... - deyə indi eybəcər ağzını, əyri-üyrü sıralmış dişlərini ona göstərməkdə idi.

Düzdü, həmin an orada aralarında mübahisə yarandı, ona toxundu. Ancaq dişi düşdüyünü görməmişdi. Ağzını əli ilə tutub getmişdi.

Polis kapitanı onu müdafiə edirmiş kimi dedi:

- Azğınlaşıb da. Elə bir başa idarəyə göndərəcəyik.

Onun müsibətli günləri varmış. Vaxtında otuz manata razılaşmadı, indi prokurorluqda min manatdan dəm vururdular. Arada lap üç yüz manata düşürdülər. Bafadar hirslənib deyirdi:

- Ə, bu məsələni nə çox böyüdürsünüz?! Adi göl balığı idi də... Bir bitim yoxdu, yüz manat hardadı?
- Onda reodiaktiv maddə tapılıb. Bu da insan səhhəti üçün qorxuludu. Bir yandan da xuliqan hərəkətlərin... Vurub kişinin dişini salmış, ağır xəsarət yetirmisən.
- Bir diş nə vaxtdan ağır xəsarət olub?
- Sənə belə gəlir də...

Demə, hələ bütün bunlar tamaşa imiş, uzun müddət istintaq getdi. Bu müddət də təcridxanada o ki, var istirahət etdi. İnzibatı qaydada cəzalanmalı olsa da, kişinin dişini, xuliqanlığını bəhanə edib, onu o ki, var həbsxanada yatırtdılar. Arvadı arada yanına gəlmişdi. Ağlaya-ağlaya deyirdi:

- Sənə demədim, a kişi, şəhər yerindən uzaq ol... Onların nəinki kişiləri, elə arvadları da qorxuludur. Bəzən bir sözlə, donlarının qırağını kəsməklə, qaldırmaqla oğlanları elə xataya salırlar ki, heç olmayan kimi...
- Bu polislərdən heç gözləməzdim...
- Onları da nə qınayasan. Bala başı saxlamalıdırlar da. Səlahiyyət əllərindədir... Ac qurda dönüblər də... Sən də lap ağ eləmisən də... Hovuzun suyunu korlamısan... Vurub xalxın dişini salmısan...

Kişi qeyri-iradi səsləndi, bağırdı:

- Yalandı! Hamısı onların düzəltməsidir! Mən sadəcə ona toxundum... Dişlərinin tökülməsi onların düzəltməsidi... O gün deyirəm qoy bir yaxşı-yaxşı baxım, qoymur. Görürsən də, deməli əvvəldən düşüb...
- Bəs deyirlər ki, əlində həkim arayışı var.
- Bunu almaq onların əlində çox çətindi? Ortalıqda gör nə qədər pul almaq istəyi var.
- Gərək onda inəyi sataq.
- Elə bircə bu qalmışdı.

Kişinin məhkəməsi əsl şoya çevrildi. Nə qədər adam gəlmişdi ki... Bir yandan da hakim vəkil tutmağı təkid edirdi. Bu da onların yem yeri idi. Vəkil də arvadına pıçıldayıb ki, bu işi yoluna qoymaq üçün nə az-nə çox, düz üç min manat pul lazımdı. Bu barədə eşidəndə odlandı da!

- Dağlasana dünya, üç manata balıq sat... Vaxtında otuz, üç yüz manata razılaşma... İndi üç min manatı qoy ortalığa...

Məhkəmə zalına onu aparıb, lap qoyun qəhəlinə oxşayan bir yerə saldılar. Dəmir çərçivəli bu yer çox utandırıcı idi. Hakim də onu dindirəndə dedi:

- Qoculuğun axırı da bu... İndi orada özünü necə hiss edirsən?
- Çox pis...

Həmin Rasəddin adlı adama söz veriləndə yenə də kəkələdi, tutula-tutula dedi:

- Mən... ba...rış...mıram... O məni təh...qir edib...

Hakim arada işi lap lağ-lağıya çevirdi, gülə-gülə dedi:

- Ə, bu yazıq nə eidb ki... Balıq satırmış da... Bir az kefli, içkili olub... Əlindən xəta çıxıb da...
- Yox, vallah, mən içən deyiləm...
- Kəsin!
- Pul quduzdurubmuş da, - deyə prokuror da öz sözündən qalmadı.

Onu müdafiə edən vəkil nəhayyət ki, dilləndi:

- Çox xahiş edirəm ki, təhqirə keçməyin...
- Hə də... Hakim də öz fikrini beləcə bildirəndə Bafadar qımışdı:
- Bizdə qanun-qaydaya baxan kimid ki... Bunları pul öldürməsin...
- Sən sus!

Gülxanım hiss elədi ki, əri bütün işləri korladı. Bu sözlərdən sonra lap hakimin də üzü dönən kimi oldu, prokurorun da... Fasilə zamanı vəkil ona yaxınlaşıb dedi:

- Ə, dilinə yiyəlik edə bilmirsən? Nə "göl balığ", "pul" deyə-deyə qalmısan... Səndən pul istəyən var?!. Güclə iş düzüb-qoşmuşdum, hər şeyi zay elədin.

Bafadar qəhərli bir səslə pıçıldadı:

- Qadası, Allahdan gizli deyil, səndən niyə gizli olsun. Sənin də pulunu- o yüz manatı güclə tapıb veriblər. Biz üç min manatı haradan tapaq?!.
- Ə, işə düşən pul xərcləyər də...
- Satqınlıq eləmişəm?
- Daha bunu özün bilirsən?
- Yoxsa bazlığa getmişdim?
- ...
- Restorana, yeməkxanaya ki, girməmişəm?!
- ...
- Pul da ki, göydən tökülmür ki, yığıb verəsən!..
- ...
- Onda elə bu deyilənləri durdur... Vəkillər hakimlərin köməkçisinə, əlaltısına çevrilib...
- Ə, ağzına gələni danışma. Mənə deyən lazımdı ki, bu işə nəyə qoşuldun.
- Rədd ol!.. Sənin kimi vəkil mənə lazım deyil! Əclafın biri əclaf!..

Qadın ərini sakitləşdirə-sakitləşdirə deyirdi:

- A kişi, bir kiri də... O, yazıq da sənin üçün çalışıb da. Belə getsə, onsuz da inəyi satası olacağıq. Daha inad etməyinin yeri yoxdur.
- Sən sus!.. Mən nə edəcəyimi özüm bilirəm!
- Yox!.. Bu yaşda sui-qəsdçi, terrorist olacaqsan?!.
- Elə bilirsən ki, olammaram?!..
- Hə, indi burada, bu kletkanın içində kişiləşərsən...
- Sən də belə...

O gün qadın əl-ayağa düşüb, qohum-əqrəbədən deyilən pulu toplayıb, çatdıra bildi. Fasilədən sonra işə baxan hakim indi lap quzuya dönmüşdü. İndi üzündən zəhər yox, əsil mənada sevinc, nur yağırdı. Üzünü polislərə tutub deyirdi:

- Ə, bu kişidən nə istəyirsiniz? Balalarının başını saxlamaq üçün alverə qurşanıb da... "Göl balığı", bu da təzə çıxdı... Elə bizim yediklərimiz hamısı göl balığı deyil?!. Nə həkim, nə müayinə?!. Bu reodaktiv maddə söhbəti də təzə çıxdı?!. Elə isə hanı o balıqlar? Bu arayış nədi?.. Məhv edilib, yandırılıb?..

Bu sözləri eşitcək Bafadar ayaqüstə qalxdı, kükrədi:

- Hə?! Mənim balıqlarımı yandırıblar?! Keyfiyyətsiz hesab ediblər?!
- Hə də...
- Mən onlara göstərərəm!.. Hələ də onların pullarını verməmişəm... Borca gətirmişdim...
- Yaxşı-yaxşı... Sakit ol...
- Necə sakit olum, cənab hakim?!. Bu polislər lap ağ edirlər!..
- Bilirəm... Tədbir görərik.
- Deyirsiz... Ancaq ortalıqda bir şey yoxdu. Xahiş edirəm, o kapitanı çağırasınız. O nə haqla məndən üç ... yox, otuz manat pul istəyirdi?!.
- Vicdan yoxdu da...
- ...
- Elə prokurorluqda da hər şeyi şişirtdilər. Guya ki, mən vurub kişinin dişini salmışam. Hamısı şər-böhtan idi də...
- Bilirəm, xəbərim var...
- Hesabı da əvvəl minə, sonra üç yüz manata endirdilər...

Hakim gördü ki, bu lap ağ edir, kal, tutqun, titrək səslə səsləndi:

- Oğ...raş...dılar da... - Sonra nə düşündüsə, başını buladı, peşmançılığını büruzə verdi, təqsirləndirilən şəxsə səsləndi:
- Sən öz əməllərindən də danış. Camaat şəhəri gözəlləşdirir. Turistlər, xaricilər gəlir axı... Sən isə korlayırsan... Xalqımız haqqında xoşagəlməz imic yaradırsan. Polisi, prokurorluğu da başa düş də... Sənin tutulmağını istəməyiblər. Elə bu da bir proflaktiki tədbirdi də... Sən onları başa düşməmisən... Məsələ pulda deyil... Onların qəlblərinin böyüklüyünü də anla, qanmaz, nadan...

Bafadar daha bir söz deməyib susdu. Bayaqdan həyat yoldaşı ona hey işarə etməkdə, susmasını təkid etməkdə, yalvarmaqda idi. Özü də güzəştə getməyin lazım olduğunu bilsə də, ona bəraət verəndə, hakimin dediyi sözlərdən yenə də istər-istəməz təsirləndi:

- Cənab hakim, nə inzibati protokol?!. Nə cərimə?!. Onsuz da bu neçə ayda çəkdiyimi çəkmişəm də... Sizdə aşı daş eləmək nə adətdi?..

Hakim yenə də ehtiyatlı olmağı üstün tutdu. Gülümsədi... Sərtlənmədi:

- Yox. Səhv etmə, düzünü de. Aşı yox...Daşı aş etmək... Biz belə xeyirxahlıqla...
- Görürəm elə... Mənə üç yox ey... Bir versələr, burada lap rəqs edər, tullanıb-düşərəm.
- Vaxtında oxuyaydın da...
- Hər oxuyan beyəm hakim olur? De ki, arxam-dayağın var...

Hakim ondan tez-tələsik ayrılanda arxasınca səsləndi:

- Onsuz da görüşəcəyik... Mən səndən elə-belə əl çəkən deyiləm... Borclarımı qaytarmalıyam... Heç olmasa kömək eləyin, cərimənin pulunu ödəyim də...

Qadın onun əlindən tutub qapıya tərəf çəkdi:

- Gəl gedək, a kişi... Yenə artıq-əskik danışırsan, tutub apararlar.
- Hara?! Bu neçə ayda əsl universitet təhsili almışam. Mənə dedilər ki, bərk dayan, heç nə edə bilməzlər... Pulu da sən nahaq verdin...
- Deyirsən də... Onların ağzından qurtarıbsan, dilin çıxıb da... Sən bu işdən danış... Daha bu balıq alveri də düşmədi bizə. Uzaq ol bu işdən də...

Onların evə çatanda uşaqlar ac göyərçin balaları tək cüküldəşdilər. Səsləndilər:

- İnəyimizi apardılar...
- Borcun yerinə...
- Ayrılanda bizə elə qəmli-qəmli baxırdı ki...

Kişi onları bağrına basıb, oxşaya-oxşaya dedi:

- Heç kefinizi pozmayın. Nə qədər sağam, siz ehtiyac nə olduğunu bilməyəcəksiniz. İnək də alacağıq... Hər şey öz yerini tutacaq. Pisinki, pisə qalacaq. Dünya belədi də... Ruhdan düşmək olmaz. Allah verən ömrü layiqincə yaşamaq lazımdı...

Bu an arvadı da gəlib ona sığındl, gülümsəyərək dedi:

- Mənim kişimdən olmaz... Hamı səni dirəmişdi divara...

Göl balığı beləcə başına bəla olsa da, Bafadar o gündən pay torpaqlarında iri bir göl, balıqçılıq təsərrüfatı yaradıb, rayonda yaşayan beş kişidən biri oldu... Hətta susuzluqdan çapalayan bir balıq çəkili də çəkdirib yolun qırağına vurdurmuşdu. Altından da bu sözləri yazdırmışdı: "Burada göl balığı satılır!"